# YAP-ın iqtisadi məsələlər komissiyasının iclası keçirildi

**"Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunları və ölkə əhalisinin sosial müdafiəsində hökumətin həyata keçirdiyi siyasətin əsas istiqamətləri" mövzusunda tədbirdə bir daha qeyd olundu ki, Azərbaycanın iqtisadi uğurlarının, davamlı islahatların, nəzərdə tutulan hədəflərin daha geniş şəkildə və yeni metodlarla ölkə ictimaiyyətinə çatdırılmasına ehtiyac vardır**

**Dünən Yeni Azərbaycan Partiyasının İqtisadi məsələlər komissiyasının 2016-cı il üçün ilk iclası keçirildi. İclasda komissiyanın 2016-cı ildə Fəaliyyət Planı təsdiqləndi.**



YAP-ın iqtisadi məsələlər komissiyasının sədri, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov Fəaliyyət Planında nəzərdə tutulan məsələlər barədə ətraflı məlumat verdi.

Komissiyanın əsas məqsədini bir daha diqqətə çatdıran E.İbrahimov bildirdi ki, "Mənim əsas məqsədim Azərbaycanı daha müasir və zəngin, qüdrətli dövlətə çevirmək yolunda başladığımız işi davam etdirməkdir" söyləyən ölkə Prezidenti İlham Əliyevin bu ali məqsədlərinin daha yeni formada təqdim olunmasına, təbliğat və təşviqat işlərinin gücləndirilməsinə daim ehtiyac vardır. Yeni Azərbaycan Partiyasının iqtisadi ideyası, təşəbbüsləri, iqtisadi platforması dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsi olmaqla Azərbaycanın iqtisadi tərəqqisinə xidmət edir. İqtisadi inkişafın sürətlənməsi və iqtisadiyyatın müasir çağırışlara əsaslanan yeni model əsasında qurulması Yeni Azərbaycan Partiyasının iqtisadi məsələlər komissiyasının qarşısında bir sıra mühüm vəzifələr qoyur. Azərbaycanın iqtisadi uğurlarının, davamlı islahatların, nəzərdə tutulan hədəflərin daha geniş şəkildə və yeni metodlarla ölkə ictimaiyyətinə çatdırılmasına ehtiyac vardır. Azərbaycanın ən güclü təşkilatı kimi Yeni Azərbaycan Partiyasının iqtisadi məsələlər komissiyası "nikbin gələcək, sosial zənginlik, qüdrətli dövlət" tezisini özünün ali şüarı kimi qəbul edərək ölkəmizin uğurlu, dayanıqlı inkişafının təmin edilməsi, Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi yolunda bir sıra tədbirlərin həyata keçirilməsini özünün fəaliyyət fəlsəfəsi hesab edir. Komissiyanın fəaliyyət strategiyasının əsas məzmunu iqtisadi proseslərdə yaxından iştirak etmək, ölkə iqtisadiyyatının hər bir bölməsi ilə bağlı baş verən yenilikləri ictimaiyyətə daha geniş şəkildə təqdim etmək, ölkənin iqtisadi inkişaf strategiyasının elmi konseptual analitik şərhini reallaşdırmaqdan ibarətdir.

Azərbaycan iqtisadiyyatının inkişafı ilə bağlı elmi iqtisadi tədbirlərin təşkil olunmasını xüsusi qeyd edən E.İbrahimov keçirilən tədbirin bu tələbə cavab verdiyini vurğuladı. Ölkənin tanınmış iqtisadçılarının, kütləvi informasiya vasitələrinin iştirakı ilə dəyirmi masaların, konfransların təşkili və s. kimi addımlar YAP-ın iqtisadi məsələlər komissiyasının fəaliyyətinin tərkib hissələrindəndir.

Tədbirin mövzusunun "Regionların 2014-2018-ci illərdə sosial- iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunları və ölkə əhalisinin sosial müdafiəsində hökumətin həyata keçirdiyi siyasətin əsas istiqamətləri" olduğunu qeyd edən E.İbrahimov bildirdi ki, ötən ay keçirilən konfransda dövlət başçısı İlham Əliyev bütün sahələrdə əldə olunan uğurlara bir daha nəzər saldı, aqrar sahənin yol xəritəsi müəyyənləşdirildi. Konfransda bildirildi ki, sahibkarlığın inkişafına xüsusi diqqət yetirilir. Dünyanı bürüyən maliyyə və iqtisadi böhran dövründə ölkə iqtisadiyyatında sabitlik mövcuddur, ümumi daxili məhsulda artım 1,1 faiz təşkil edir. Konkret rəqəmlərə müraciət etməklə Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı uğurların təbliğini yüksək səviyyədə həyata keçirmək mümkündür. Bəzi qüvvələrin apardığı qərəzli təbliğata cavab olaraq Azərbaycanın bugünkü reallıqlarını faktlar əsasında qeyd etməliyik.





E.İbrahimov rəqəmlər əsasında kənd təsərrüfatı sahəsində inkişafı açıqladı. Nəzərə alaq ki, ötən il dövlət başçısı İlham Əliyevin sərəncamı ilə "Kənd təsərrüfatı ili" elan edilmişdir. Cənab İlham Əliyev hər bir çıxışında ölkədə biznes mühitinin yaxşılaşdırılmasını, sahibkarlığın inkişafını vacib amil kimi önə çəkir. İnkişafa mane olan amillərin aradan qaldırılmasının vacibliyi bildirilir.

Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda dövlət başçısı İlham Əliyev uğurlara nəzər salmaqla yanaşı prioritetləri də açıqlamışdır. Ötən il kənd təsərrüfatı 6,6 faiz artmışdır. İri fermer təsərrüfatları yaradılmışdır. Cənab İlham Əliyev bu işlərin cari ildə də davam etdiriləcəyini bildirmişdir. Məqsəd idxaldan asılılığı azaltmaqdır. Sənaye məhsulu istehsalı 2,4 faiz artıb. Sənayenin qeyri-neft sektorunda artım 8,4 faiz təşkil edir. İnflyasiya 4 faiz olub. Əhalinin gəlirləri 2014-cü ilə nisbətən 5,7 faiz, orta aylıq əmək haqqı 4,5 faiz artıb. İqtisadiyyata 15 milyard manatdan çox investisiya qoyulub. Məqsəd ixrac məhsulları istehsal etmək, xaricə çıxmaq, ölkəyə valyuta gətirməkdir. Qeyri-neft sektorunun prioritet sahələrindən biri aqrar sahədir ki, bu istiqamətdə davamlı addımlar atılır.

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov dünyada baş verən iqtisadi və maliyyə böhranından bəhs edərək, dünya iqtisadiyyatının bir parçası olan Azərbaycanın uğurlarının düzgün təhlil edilməsinin bir zərurət olduğunu vurğuladı. Bu gün dünya inkişafın Azərbaycan modelindən bəhs edir. Bu modelin növbəti mərhələdə də ölkəmizə uğurlar qazandırması üçün davamlı tədbirlər həyata keçirilir, islahatlar aparılır. Ölkə Prezidenti İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda dinamik iqtisadi inkişafın qorunmasını vacib amil kimi önə çəkərək bunun üçün zəruri addımları diqqətə çatdırdı. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi önə çəkildi. Şəffaflığın təminatı davamlı inkişaf üçün əsas amil kimi qeyd olunur. Bütün sahələrdə bu amilin qorunması üçün zəruri tədbirlər planı açıqlandı. Yaranmış vəziyyətdən istifadə edib qiymətlərdə süni artım yaradanlara qarşı cəzanın tətbiq olunması xüsusi olaraq önə çəkildi. Bütün bunlar dövlət başçısı İlham Əliyevin qeyd etdiyimiz konfransdakı çıxışında əksini tapıb. Hər bir aidiyyəti qurum bu tapşırıqlardan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində səylərini daha da artırmalıdır. Bu gün bölgələrdə nazirliklərin, aidiyyəti strukturların rəhbərlərinin ictimaiyyət nümayəndələri lə görüşü və onların problemləri ilə maraqlanması dövlət başçısı İlham Əliyevin ictimai nəzarətin gücləndirilməsini bir tələb kimi qarşıya qoymasından irəli gəlir.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev Azərbaycan iqtisadiyyatının bugünkü inkişaf səviyyəsindən, aparılan davamlı islahatlardan, ən əsası dövlətin siyasətində insan amilinə böyük dəyər verilməsindən ətraflı danışdı. Qeyd etdi ki, hər zaman Azərbaycanın özünü dünyaya sosial dövlət kimi təqdim etdiyi bildirilərkən bu amilin rolu bir daha öz təsdiqini tapır.

Bildirildi ki, iqtisadi islahatların dərinləşdirilməsi fonunda bu gün ortaya çıxan hər bir problem öz müsbət həllini tapır. Dünyanı bürüyən maliyyə və iqtisadi böhran dövründə ölkəmizdə müxtəlif sahələrdə çalışan insanların əmək haqlarının, eyni zamanda pensiyaların, sosial müavinətlərin artırılması təbii ki, ölkəmizin bugünkü iqtisadi imkanlarına əsaslanır. Azərbaycan dövləti daim xalqın sosial rifah şəraitində yaşamasına çalışır, atılan addımlar da bunun təsdiqidir.

Komissiyanın digər üzvlərinin də mövzu ilə bağlı fikirləri dinlənildi və bildirildi ki, iqtisadi uğurlarımızın, Azərbaycanın iqtisadi inkişaf strategiyasının təbliği əsasdır. YAP-ın iqtisadi məsələlər komissiyası cari il üçün nəzərdə tutulan Fəaliyyət Planında əksini tapan tədbirlərin həyata keçirilməsi ilə bu işə öz davamlı töhfəsini verməyə çalışır.

**Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***